## Mövzu 30. CƏNUBİ AZƏRBAYCAN 1930-40-CI İLLƏRDƏ
## (ardı)

Xoy, Maku, Sərab, Mianə və Əhərdəki Məclisə seçkilərin nəticələri SSRİ üçün arzuolunmaz idi. Çünki ingilis səfiri Bulard Londondakı İran səfiri seyid Həsən Tağızadənin namizədliyini müdafiə edirdi. Təbrizdə isə əksinə, sovetlərin müdafiə etdiyi 7 namizəddən 5-i uğur qazandı.

XIV çağırış İran Məclisi 1944-cü il fevralın 26-da işə başladı. Lakin 16 min təbrizlinin səsini alan S.C.Pişəvəri və Şeyx Lənkəraninin mandatları iyun iclasında ləğv edildi.

Beynəlxalq aləmdə baş verən dəyişikliklərlə əlaqədar SSRİ XKS V.Molotovun başçılığı ilə «Cənubi Azərbaycan əhalisinə iqtisadi və mədəni yardımın gücləndirilməsi tədbirləri haqqında» qərar qəbul etdi. Qərara əsasən mart ayından başlayaraq Sovet Azərbaycanından zabit və siyasi işçilərin, ticarət mütəfəkkillərinin Cənuba göndərilməsi prosesi başladı.Aprel ayının 10-da 4 min tirajla «Vətən yolunda» qəzetinin 1-ci sayı çıxdı. Şimaldan gələn mətbuat işçiləri arasında Cəfər Xəndan, Qulam Məmmədli, Qılman Musayev, Ənvər Məmmədxanlı, Məmməd Rahim və b. da var idi.

Cənubi Azərbaycana təsiri artırmaq üçün AK(b)P MK Təşkilat Bürosunun 20 mart tarixli qərarı ilə Bakıda, Qafqaz Müsəlmanları Dini idarəsi yaradıldı. Xüsusi tapşırıqla Cənuba göndərilən qruplara ümumi rəhbər təyin edilən H.Həsənov AK(b)P MK-nin ideologiya üzrə katibi Qəzənfər Məmmədovla birlikdə rəhbər işçilər arasında iş bölgüsü barədə təkliflərini M.C.Bağırova təqdim etdi. Bu qrupun əsas vəzifəsi Arazın o tayındakı azırbaycanlıların milli özünü dərk hissini yüksəltmək, onların tək olmadığını onlara bildirmək idi.

Mayın 19-da sovet hökuməti Ümumittifaq Mədəni Əlaqə Cəmiyyətinin filialı kimi Təbrizdə Mədəniyyət evi açılmasına icazə vermişdi. Nümunəvi aqrotexnika stansiyası yaratmaq üçün İman Mustafayevin məktubuna cavab olaraq Təbrizə 15 traktor, 5 maşın, toxumçuluq laboratoriyası üçün avadanlıq və s. göndərilmişdi.

İyunun 24-də V.Molotovun imzası ilə SSRİ XKS-nin Təbrizdə ana dilində orta məktəb açılması haqqında qərarı qəbul edildi. Sentyabrın 20-dək bu məktəbə yazılmaq üçün 800-dən çox ərizə verilmişdi. İran hökuməti isə bu işlərə mane olmaq üçün Qərbi Azərbaycan ostanında kürdlərlə azırbaycanlıları toqquşdurmaqla gərginlik yaratmağa cəhd göstərirdi.

ABŞ-ın neft siyasətini genişləndirməsi sovet hökumətini narahat etməyə başladı və İrandakı diplomatik korpusa Said hökumətini yıxmaq barədə təlimat verirdi. Oktyabrın 25-də sovet hökumət komissiyası Tehrandan gedən gün Təbrizdə Said hökumətinə qarşı etiraz mitinqləri başladı. Oktyabrın 27-də Gülüstan bağında və Ala qapı meydanında

mitinq iştirakçılarının sayı 12 minə, üç gün sonra isə 40 minə çatmışdı. İran ordusunun komandanı general Xosrovaninin əmri ilə xalqa atəş açıldı, ölən və yaralananlar oldu. Oktyabrın 31-də dəfn mərasimində 50 min Təbrizli iştirak edirdi. Tezliklə mitinq dalğası bütün İranı bürüdü. Ərdəbil, Sərab, Qəzvindəki mitinqlərdə 70 min azərbaycanlı iştirak etmiş, Stalinin portreti qaldırılmışdı. Təbrizdəki mitinqdə Məhəmməd Biriya hətta bildirmişdi ki, əgər hökumət xalqın tələblərini yerinə yetirməsə Azərbaycan onun tabeliyindən çıxacaqdır. Bu hadisələr nəinkiİran hökumətini, hətta ingilisləri də narahat etməyə başladı. İran mətbuatı Azərbaycandakı hadisələri təhrif edərək tayfa davası kimi qələmə verirdi, guya bəzi tayfalar Cənubi İrana köçmək istəyirlər.

Noyabrın 9-da nəhayət Məhəmməd Said hökuməti istefaya getməyə məcbur oldu. Noyabrın 25-də Mürtəzaqulu Bayatın başçılığı ilə yeni kabinənin tərkibi elan edildi. Bundan 5 gün sonra məclis neft konsessiyaları barədə danışıqlar aparmağı qadağan edən qanun qəbul etdi.

Yeni hökumətin təşkili Azərbaycandakı kütləvi çıxışların qarşısını ala bilmədi. Dekabrın 1-i 15 min nəfərlik Təbriz mitinqində əyalət əncümənininin təşkili, Sovet İttifaqına neft konsessiyasının verilməsi, Seyid Ziyanın ölkədən qovelması kimi tələblər irəli sürüldü.

1945-ci il yanvarın 11-də Təbrizdə Tudə partiyasının Azərbaycan əyalət təşkilatının I konfransı keçirildi. Xalq Partiyasının fəallaşmasından narahat olan İran və ingilis dairələri mart ayında Təbrizdə bu partiyaya və SSRİ-yə qarşı mitinq və çıxışlar təşkil etdilər. 21 mart mitinqində «Xalq Partiyası və onu müdafiə edənlər rədd olsunlar», «Biriyaya ölüm» və s. şüarlar səslənmişdi.

Martın 22-də mitinq iştirakçıları Tudənin tərəfdarı hesab etdikləri Mollo Fətəlinin evini mühasirəyə alıb öldürməklə hədələdilər. Sovet hərbi rəhbərliyinin tələbi ilə mitinq təşkilatçıları həbs edildilər. Lakin həmin günlərdə Təbrizdə Qırmızı Ordu üçün şinel tikən «Toşlinen» adı böyük səhmdar fabrikinin bağlanması vəziyyəti daha da gərginləşdirdi. Həmkarlar təşkilatı ilə fabrik rəhbərliyinin martın 20-də gəldiyi razılaşmaya görə fəhlələrə işlədikləri günlərin pulu ödənilməli idi. Təbrizdə mitinq başladığı gün İran bankı fabrikə kredit buraxmadığı üçün razılaşmaya əməl edilmədi. Bu isə fəhlələrin fabrikin içində bəstə oturmaları ilə nəticələndi.

Müharibədə alman-faşist blokunun məğlubiyyəti bütün dünyada olduğu kimi Cənubi Azərbaycanda da 9 may qələbə bayramı qeyd olundu. Bu zaman İranda növbəti hökumət böhranı baş vermişdi, aprel ayında Mürtəza Bayat hökuməti istefa verdi. Mayın 13-də İbrahim Həkim-ül Mülk yeni hökumətin tərkibini elan etdi. Bu hökumətin ilk xarici siyasət addımı Tehrandakı SSRİ, Böyük Britaniya, ABŞ səfirlərinə qoşunlarının İrandan çıxarılması barədə nota təqdim etmək oldu.

Dünya müharibəsinin başa çatması ilə ermənilər «Böyük Ermənistan» yaratmaq planını yenidən gündəmə gətirdilər. İyul ayında məlum oldu ki, bu məqsədlə və İran daxilində muxtariyyat» almaq naminə Təbrizdəki erməni məktəbinin və kilsəsinin zirzəmilərində çoxlu silah-sursat gizlədilmişdir. Araşdırmalar zamanı bu silahlardan yerli azərbaycanlı əhaliyə qarşı istifadə olunacağı aşkarlandı. Bu isə ermənilərə münasibətin pisləşməsinə səbəb oldu. Gərginliyi aradan qaldırmaq üçün Zaqafqaziya Ali ruhani idarəsinin rəisi Şeyxülislam Axund Ağa Əlizadənin Cənubi Azərbaycana və Tehrana səfəri təşkil edildi. Təbriz və Tehran mətbuatı bu səfərə böyük maraq göstərir. Şeyxülislamın yüksək səviyyəli görüşləri, nüfuz SSRİ-yə qarşı aparılan «Allahsız cəmiyyət» təbliğatına bir qədər kölgə sala bildi.

İyunun 10-da İ.Stalin «İranın şimalında Sovet sənaye müəssisələri təşkil edilməsi haqqında» gizli qərar imzaladı. Qərara əsasən Təbrizdə və s. şəhərlərdə sovet Azərbaycanının sənaye müəssisələrinin filialları yaradılması nəzərdə tutulurdu. Digər məxfi tədbirlər planında ADR-nin və əyalət əncüməninin yaradılması, məclisə yeni seçkilərin təmin olunması öz əksini tapmışdı. Xalq partiyası və digərlərinin fəal üzvləri hesabına ADR təşkil edilməli idi. Məsul redaktoru Rəsul Rza olan «Azərbaycan» jurnalı nəşr olunmağa başladı.

Sovet hökumətinin Cənubi Azərbaycanda gördüyü işlər İrandakı Böyük Britaniya və ABŞ diplomatik dairələri tərəfindən izlənirdi. İyulun 23-də Britaniyanın təşəbbüsü ilə İran məsələsi Potsdam konfransının gündəliyinə çıxarıldı. Qəbul olunmuş qərarda deyilirdi ki, müttəfiqlər təcili olaraq silahlı qüvvələrini Tehrandan çıxarmaq razılığına gəlmişlər. Onunla əlaqədar SSRİ Cənubi Azərbaycandakı fəaliyyətini sürətləndirmək qərarına gəldi.

1945-ci il sentyabrın 3-də şəhər divarlarında ADR-nin yarandığı barədə müraciətnamələr peyda oldu. «Azərbaycan» qəzetinin sentyabrın 5-də çıxan ilk sayında S.C.pişavarinin «Firqəmiz işə başladı» adlı məqaləsi dərc olundu.

Sentyabrın 6-da İXR AƏK-nin konfransı oldu. Konfransda Təbrizdən və müxtəlif vilayətlərdən 112 tudəçi iştirak edirdi. Firudin İbrahimi ADR-nin müraciətini oxuyaraq konfransın müzakirəsinə təqdim etdi. İştirakçıların çoxu müraciəti müsbət qəbul etdi, ermənilər isə Xalq Partiyasının ADR-yə birləşdirilməsinə qarşı çıxdılar. Buna baxmayaraq, sentyabrın 7-də qəbul edilən qərarda XP-nın bütün təşkilatlarının ADR-yə birləşdirildiyi göstərildi. Ayın 14-də partiya təsisçiləri Təbrizdə müşavirə keçirdilər. Firqə işlərinə rəhbərlik üçün gizli səsvermə ilə S.C.Pişavari başda olmaqla 14 nəfərdən ibarət Təşkilat Komitəsi yaradıldı. Bu komitə partiyanın proqramı və nizamnaməsini hazırlamalı, tezliklə qurultay çağırmalı idi.

Oktyabrın 2-də öz işinə başlayan ADR-nin təsis qurultayı ölkədə baş verən növbəti hökumət böhranı ilə bir araya düşdü. Möhsün Sədr istefa verdi. İbrahim Hakimi II

hökumət kabinəsini yaratdı. Lakin bu da çox çəkmədi, üç aydan sonra onu Qəvam-əs-Səltənə əvəz etdi.

ADR-nin I qurultayında qəbul olunmuş proqramda İran daxilində məhəlli muxtariyyata və geniş hüquqlara, demokratik respublikaya nail olunmasının əsas vəzifə kimi irəli sürülməsi İran cəmiyyətində, xüsusilə Azərbaycanda demokratik hərəkatın güclənməsinə təkan verdi.

Noyabrın 8-9-da ADR MK-nın Təbrizdə 2-ci plenumu keçirildi. S,C,Pişavari «İranda siyasi vəziyyət və Demokrat firqəsinin vəzifələri haqqında məruzə edərək 15-ci İran Məclisinə seçkilərin təxirə salınmasını Konstitusiyanın pozulması kimi qiymətləndirdi.

Plenumdan dərhal sonra noyabr ayının 12-dən başlayaraq mitinq və nümayiş dalğası Cənubi Azərbaycanı bürüdü. Ayın 14-də ADR MK İran hakimiyyət orqanlarının Azərbaycanda törətdiyi vəhşiliklər haqqında Təbrizdəki xarici konsulluqlara rəsmi məlumat təqdim etdi və «Azərbaycan» qəzetində zorakılıq faktlarının fotoşəkilləri dərc edildi.

Noyabrın 16-da Təbriz valisini əvəz edən Həsən Dövlət Şahi, diviziya komandiri general Dərəkşani, jandarm rəisi polkovnik Hümayün Azərbaycandakı vəziyyəti Tehrana teleqramla məruzə etdilər. Hökumətin fövqəladə iclasında Azərbaycan məsələsi müzakirə olundu və Mürtəza Bayat yeni vali təyin edildi. Ayın 17-də İran XİN bu hadisələrlə bağlı Tehrandakı sovet səfirliyinə nota verdi. Sovet tərəfinin cavab notasında deyilirdi ki, şimal vilayətlərinə İran ordusunun göndərilməsi arzuolunmaz nəticələr verə bilər.

Noyabrın 18-də Təbrizdə 20 minlik mitinq keçirildi. Mitinqdə Pişavari, Biriya və İlhami çıxış etdilər. Ertəsi gün Təbriz evlərinin divarlarında general Dərəkşaminin müraciəti yapışdırıldı.

Noyabrın 20-də «Şir-Xurşid» teatrının binasında 646 nümayəndələrin iştirak etdiyi Azərbaycan Xalq Konqresi işə başladı. 17 nəfərdən ibarət Rəyasət Heyəti seçildi. Konqres Cənubi Azərbaycana muxtariyyət tələbi irəli sürdü. Yekun iclasında Azərbaycan Məclisi Müəssisaninin təsis qurultayı haqqında qərar, İran şahının məclis və hökumətinə bəyannamə, Azərbaycan millətinə və ümumiran Xalqına müraciət, Azərbaycan Milli Məclisinə seçkilər haqqında əsasnamə qəbul etdi. Xalq hökuməti yaradılana qədər konqres nümayəndələrindən 39 nəfərlik Milli Heyət yaradıldı və Azərbaycan parlamentinə seçkilərin keçirilməsi haqqında qərar qəbul edildi. İranda ilk dəfə olaraq Azərbaycan qadınına seçki hüququ verildi. 20 yaşına çatmış hər bir vətəndaş seçki hüququna, 27-80 yaş arasında olan, ana dilində yazıb-oxumağı bacaranlar isə seçilmək hüququna malik idilər.

Noyabrın 23-də Milli Heyətin iclasında Azərbaycan Milli Məclisinə seçkilərin noyabrın 27-dən başlayaraq 5 gün ərzində keçirilməsi qərara alındı. Azərbaycandakı

hadisələr nəinki Tehranda böyük həyəcana səbəb olmuş, hətta ingilis-amerikan nümayəndəliklərini də bərk narahat etməyə başlamışdı.

Noyabrın 27-də Baş nazir Həkimülmülk Tehrandakı sovet səfirini əvəz edən Əhəd Yaqubovu görüşə dəvət edərək İran ordusunun şimala buraxılmasını təkid etdi. Ertəsi gün yeni vali Mürtəza Bayat təbrizə gəldi. O, dekabrın 1-də sovet konsulluğuna gedərək Baş konsulası ilə görüşdü və ADR rəzbərləri ilə görüşmək istədiyini bildirdi.

Dekabrın 3-də bir tərəfdən Pişavari və Rafii, digər tərəfdən M.Bayat və Dövlət şahı olmaqla danışıqlar başlandı. Muxtariyyat tələbinin İran konstitusiyasına uyğun gəlmədiyini bildirən Bayat növbəti görüş arzusu ilə Tehrana qayıtdı.

Azərbaycan Milli Məclisinə 32 dairədən 95 millət vəkili seçildi. Azərbaycan Milli Məclisinin sessiyasının açılması dekabrın 10-a nəzərdə tutulmuşdu.

Azərbaycan Milli Məclisinin əvəzinə Azərbaycan Əyalət əncüməni və ostandarlığı fəaliyyət göstərməyə başladı.

Hətta belə ciddi güzəştlərə bazmayaraq İran rəhbərliyi həmin müqaviləni təsdiq etməkdən yayındı. Əslində o, milli-demokratik hərəkatı boğmaq üçün plan cızırdı. Mərkəzi İran hökuməti ABŞ ilə gizli müqavilə bağlayaraq ondan 40 tank, 150 bombardmançı təyyarə və digər silahlar aldı. «Azərbaycanın fəthi» üçün büdcədən 1 mln 250 min tümən vəsait ayrıldı.

1946-cı ilin noyabrında 50 min nəfərlik şah qoşun 55 tank, 50 təyyarə, 174 top, 3 minə qədər ağır pulemyot və b. silahlarla Cüney Azərbaycana hücuma keçdi. Əməliyyatlara Amerikanın İrandakı hərbi komissiyası və Məhəmməd Rza şahın özü şəxsən rəzbərlik edirdi. Belə böyük qüvvənin qarşısında Cənubi Azərbaycan milli istiqlalçıları vur-tut 18 min nəfərlik silahlı qüvvəyə malik idilər. Buna baxmayaraq şah ordusuna maddi müqavimət göstərildi. Şahsevən qızı Səriyyə 18 nəfərlik bir fədai dəstəsilə 5 gün qəhrəmanlıqla vuruşdu. O, ölərkən demişdi: «Azadlıq ağacları şəhidlərin qanı ilə suvarıldıqda daha çox bar verəcəkdir». Qüvvələr nisbəti bərabər olmadığından fədailər məğlub oldular. Milli-demokratik hərəkat qan içində boğuldu. Qısa müddətdə 25-30 min nəfər öldürüldü, 300 min nəfər isə sürgün edildi. Fars şovinist hakim dairələri Cənubi Azərbaycanda siyasitəqibləri gücləndirdilər. Milli universitet, teatr, radio, filarmoniya, kitabxana və s. bağlandı. Səttarxan və Bağırxanın heykəlləri sonuncunun kürəkəni general Haşiminin əlilə dağıdıldı.

1945-1946-cı illərdəki milli-demokratik hərəkatın məğlubiyyətinin səbəbləri aşağıdakılardır:1) Milli hökumətin silahlı qüvvələrinin azlığı və zəifliyi, habelə təkcə rəsmi Tehrana deyil, bir neçə xarici dövlətə qarşı mübarizə aparılması; 2) sovet rəhbərliyinin və Qərbin ikili siyasəti və İranın onlarla müəyyən razılaşmalar əldə edə bilməsi; 3) Milli hökumətin rəhbərliyindəki fikir ayrılıqları, hərbi və xarici işlər nazirliklərinin yaradılmaması, bütün xalqın və fədai-mücahid qüvvələrinin birliyinə nail olunmaması,

Milli Məclisin Əyalət Əncüməni və ostandarlıqla əvəzlənməsi, ADR MK rəhbərliyinin qətiyyətsizliyi və məğlubiyyətinə baxmayaraq bu hərəkatın çox böyük əhəmiyyəti olmuşdur. O, ilk növbədə Cüney Azərbaycanda milli mənlik şüurunun və milli özünüdərkin möhkəmlənməsi və inkişafı prosesinə çox mühüm təsir göstərdi. Müharibədən sonra keçmiş SSRİ-də dağılmış təsərrüfatı, şəhərləri və kəndləri bərpa etmək üçün IV 5 illik planın həyata keçirilməsində fəal iştirak etmişdi.

Mərkəzdə hakimiyyət Baş katib Stalinin, respublikalarda isə KP MK katiblərinin əlində cəmləşdirilmişdi.